

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 17 (23.904)

27 yanvar 2022-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ötən ilin yekunları müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib

*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində Daxili İşlər Nazirliyi Veteranlar Şurasının 2021-ci ilin yekunu üzrə ümumi yığıncağını Naxçıvan Muxtar Respublikası daxili işlər nazirinin müavini, nazir vəzifələrini icra edən polis polkovniki Rəşad İsmayılov açıb.*



Naxçıvan Muxtar Respublikası Daxili İşlər Orqanları Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Yusif Həsənov bildirib ki, 2021-ci il ərzində 107 təqaüddə olan polis əməkdaşı, ümumilikdə isə Veteranlar Şurası fəaliyyətə başlayandan bu günə qədər 643 nəfər birgə fəaliyyətə cəlb olunmuşdur. Beləliklə, muxtar respublika ərazisində yaşayan 1000-ə yaxın polis veteranının 60 faizdən çox hissəsi polis orqanları ilə birgə fəaliyyət göstərməyə başlamışdır.

Qeyd olunub ki, hesabat dövründə 30-dan artıq polis veteranı daxili işlər orqanlarına yeni xidmətə qəbul olunmuş gənc əməkdaşlarla hamilik işinin təşkili və peşə vərdişinin aşılanmasında öz köməkliklərini göstərmiş, həmçinin daxili işlər orqanlarında xidmətə qəbula namizədlərin öyrənilməsində yaxından iştirak etmişdir. Veteranlarımız tərəfindən hesabat dövründə müxtəlif xarakterli 78 inzibati xəta faktı aşkar edilərək müvafiq tədbirlər görülmüşdür. Veteranlar hesabat dövründə müxtəlif məqsədlərlə həyata keçirilən 50-dən artıq reyddə iştirak etmişlər.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası daxili işlər nazirinin müvafiq əmri ilə 2 nəfər nazirliyin Fəxri fərmanı ilə təltif edilmiş, 20 nəfər polis veteranına isə təşəkkür elan olunmuşdur. Qarşılıqlı fəaliyyətin bərpasından bu günə kimi isə, ümumilikdə, 80 nəfər mükafata layiq görülmüşdür.

Məruzə ətrafında rayon polis şöbələri veteranlar şurası sədrlərinin çıxışları dinlənilib.

Şura üzvlərinin və polis veteranlarının səs çoxluğu ilə istefada olan polis polkovniki Yusif Həsənov Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Veteranlar Şurasının sədri seçilib.

Naxçıvan Muxtar Respublikası daxili işlər nazirinin müavini, nazir vəzifələrini icra edən polis polkovniki Rəşad İsmayılov bildirib ki, Ali Məclisin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə aparılan məqsədyönlü dövlət siyasəti nəticəsində muxtar respublikanın ictimai-siyasi və sosial-iqtisadi həyatında əldə olunan uğurlar sosial himayəyə ehtiyacı olan həssas kateqoriya insanların, o cümlədən veteranların da maddi rifah halının yaxşılaşdırmışdır. Hazırda muxtar respublikada yaşayan müxtəlif kateqoriyalardan olan veteranların sosial vəziyyətinin gücləndirilməsi və sağlamlıqlarının qorunması daim nəzarətdə saxlanılır.

Dövlət qayğısı nəticəsində Azərbaycan Vətən müharibəsi veteranları, xidməti vəzifələrinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış şəxslər və digər sosial himayəyə ehtiyacı olan insanlar hərtərəfli dövlət qayğısı ilə tam əhatə olunublar. Onlara mənzillər verilir, müalicəyə göndərilir, təqaüdləri artırılır. Bu isə Vətən qarşısında borclarını layiqincə yerinə yetirən, vətənpərvərlik nümunəsi göstərən insanların fəaliyyətinə dövlətimizin verdiyi qiymətdir.

Vurğulanıb ki, polis veteranları cəmiyyətdə aparıcı qüvvə kimi gənc nəslin vətənpərvər ruhda yetişməsində fəal iştirak etməlidirlər. Veteran şuraları və ərazi polis orqanlarının müvafiq xidmətləri daxili işlər orqanlarından təqaüdə buraxılmış polis əməkdaşlarının birgə fəaliyyətə cəlb olunması tədbirlərini ardıcıl davam etdirməli və onların hamısı ilə qarşılıqlı əlaqə yaradılmalıdır.

Diqqətə çatdırılıb ki, veteranlar göstərilən ali diqqət və qayğını lazımınca dəyərləndirməli, bundan sonra da daxili işlər orqanları ilə sıx əlaqədə fəaliyyət göstərməli, qarşıya qoyulan vəzifələrin layiqincə yerinə yetirilməsində səylə çalışmalıdır.

Sonra yığıncağın qərar layihəsi qəbul olunub.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin qarşısına qoyulmuş vəzifələrin icrasında qarşılıqlı fəaliyyəti, həmçinin anadan olmasının 65-ci ildönümü münasibətilə istefada olan polis polkovnik-leytenantı Məhərrəm Həsənov nazirliyin Fəxri fərmanı ilə təltif edilib.

Naxçıvan Muxtar Respublikası daxili işlər nazirinin müavini, nazir vəzifələrini icra edən polis polkovniki Rəşad İsmayılov Veteranlar Şurasının yeni üzvlərini təbrik edib, polis veteranlarına fəaliyyətlərində uğurlar arzulayıb.



*Yanvarın 26-da Naxçıvan Şahmat Mərkəzində Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının 2021-ci ilin yekunları ilə bağlı tədbiri keçirilmişdir.*

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov çıxış edərək demişdir ki, muxtar respublikada bütün sahələrdə olduğu kimi, idmana da böyük diqqət və qayğı ilə yanaşılır. Bu qayğıdan bəhrələnən idman federasiyalarından biri də Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasıdır. Ötən il ərzində iki şahmatçımız beynəlxalq titul qazanmış, bir şahmatçımızın adı isə Naxçıvan Muxtar Respublikasının Gənc İstedadlarının "Qızıl Kitabı"na salınmışdır. Bu, Naxçıvan şahmatının daim inkişafda olduğunun göstəricisidir. Ötən il Naxçıvan şahmatçıları ölkə və beynəlxalq turnirlərdə uğurla iştirak etmişlər. Şahmat müəllimlərinin dərsləri tədris etməsi ilə yanaşı, kitablar yazması, tərcümə etməsi və istedadlı şahmatçılar hazırlamaları şahmatın muxtar respublikada kütləviliyinin, inkişafının göstəricisidir. Bu sahədə görülən işlər beynəlxalq şahmat ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir, nümunə kimi göstərilir.

Vurğulanmışdır ki, federasiya hər il yeni proqramlar hazırlayır, təklifləri dəyərləndirir, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə sıx əməkdaşlıq edir. Təhsil Nazirliyi ilə birgə şahmatı tədris edən muxtar respublika müəllimlərinin sertifikasiyası keçirilir, onlarla görüşlər təşkil olunur. Bu da şahmatın inkişafına böyük təkandır. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə federasiya qarşılıqlı əlaqələr əsasında birgə çalışır, şəhər və rayonlarda yarışlar keçirilir. Rayon bölmələri daim öz fəaliyyətlərini gücləndirir. Əlavə olaraq il ərzində rayon və şəhər məktəblərində valideynlərlə, şahmatçılar və müəllimlərlə görüşlər keçirilir.

Qeyd edilmişdir ki, Ali Məclis Sədrinin tapşırıqlarına, diqqət və qayğısına əsasən bu il də Şahmat Federasiyası öz işini təqvim planına uyğun quracaq və şahmatın inkişafı üçün yaradılan şəraitdən səmərəli istifadə edəcək. Federasiya rəhbəri çıxışının sonunda göstərilən diqqət və qayğıya görə federasiyanın məşqçi və idmançıları adından minnətdarlığını bildirmişdir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov vurğulamışdır ki, muxtar respublikada müasir şahmat infrastrukturu formalaşdırılmışdır. Rayon mərkəzlərində yeni şahmat məktəbləri, Naxçıvan şəhərində Şahmat Mərkəzi, ümumtəhsil məktəblərində şahmat sinifləri yaradılmışdır. Şahmat mərkəzi və məktəbləri 67 ən yeni müasir kompüter və 9 elektron lövhə, həmçinin şahmatla bağlı elektron tədris vəsaitləri ilə təchiz olunmuşdur. Eyni zamanda ümumtəhsil məktəblərində şahmat sinifləri 490 ayaqlı, 500 asma və 3910 stolüstü şahmat dəsti ilə təchiz edilmişdir. 2019 və 2020-ci illərdə keçirilən sertifikasiyada şahmatı tədris edən və uğurlu nəticə göstərən 505 müəllimə ümumtəhsil məktəblərində şahmat fənnini tədris etməsinə icazə hüququ verən sertifikat verilmişdir. Federasiyanın hazırladığı "Pillə-pillə", "Debütdə buraxılmış səhvlərə aid 1000 oyun", "Naxçıvan şahmat diyarıdır", "Şahmat incilərini tapmaq" və "Həvəskardan ustaya qədər" kitabları ümumtəhsil məktəblərində şahmat fənninin yüksək səviyyədə tədris olunmasına öz töhfəsini vermişdir. Uşaq-Gənclər Şahmat məktəbləri tərəfindən federasiya ilə birlikdə 132-si məktəbdaxili, 73-ü məktəblərarası, 76-sı tempo yarışı, 93-ü rayon birinciliyi, 18-i muxtar respublika birinciliyi, 20-si Azərbaycanın rayonları arasında onlayn yoldaşlıq görüşü, 12-si Türkiyə və Pakistan şahmatçıları arasında onlayn yoldaşlıq görüşü, 2-si isə Beynəlxalq yarış səviyyəsində olmaqla, ümumilikdə, 426 şahmat yarışı keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı çıxış edərək demişdir ki, Ali Məclis Sədrinin rəhbərliyi altında muxtar respublikada idman və idmançılara dövlət qayğısı ən yüksək səviyyədədir. Naxçıvan idmanının maddi-texniki imkanları sayəsində yeniyetmə və gənclərin bu sahəyə marağı



günü-gündən artmaqdadır. Nazirlik idmanın inkişafı və təbliğinə nail olmaq üçün muxtar respublikanın bütün idman federasiyaları ilə qarşılıqlı fəaliyyət göstərir və bu sahədə dövlət siyasətini həyata keçirir. 2021-ci il Naxçıvan şahmatı üçün uğurlu olub. Belə ki, Birinci "Naxçıvan Premium Turniri"ndə qazanılan etimad nəticəsində muxtar respublika ilk dəfə olaraq şahmat üzrə ölkə çempionatına ev sahibliyi etmişdir. Naxçıvan zəka sahiblərinin titullu şahmatçılarla bir yarışda iştirak etməsi onlar üçün böyük təcrübə olmaqla yanaşı, gələcək nailiyyətlər üçün zəmin yaratdı. Bunun nəticəsidir ki, idmançılarımız Serbiyada keçirilən beynəlxalq turnirin qaliblərindən olmuş, 1 şahmatçımız Rusiyada keçirilən Avropa çempionatında milli komandamızın heyətində çıxış etmiş və il sonunda FIDE ustası adına layiq görülmüşdür. Naxçıvan şəhəri və bölgələrdə federasiyanın bölmə və qrupları fəaliyyət göstərir. Həmin bölmələrdə, ümumilikdə, 233 qrup üzrə 3106 uşaq, yeniyetmə və gənc idmanın bu növü ilə məşğul olur.

Sonra Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədr müavini Emin Hacıyevin hesabatı dinlənilmişdir.

Sonda federasiyanın 2021-ci il üçün mükafat fondunda nəzərdə tutulan mükafatlar il ərzində yarışlarda yer tutan, titul qazanan şahmatçılar, onların müəllimləri və direktorlarına, göstərdikləri fəaliyyətə görə məktəblərə və onların müəllimlərinə təqdim olunmuşdur.

**"Şərq qapısı"**

* * *

*Naxçıvan Dövlət Texniki Kollecində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından irəli gələn vəzifələr, kollecin fəaliyyətində yol verilən nöqsanlar və qarşıda duran vəzifələrlə bağlı iclas keçirilib.*

İclasda kollecin direktoru Asəf Ruşanov çıxış edərək bildirib ki, kollec 2021-ci il ərzində öz fəaliyyətini dövlət təhsil siyasətinin tələbləri əsasında qurub. Ötən tədris ili üzrə kollecdən 116 tələbə məzun olub, onların 111 nəfəri adi, 5 nəfəri isə fərqlənmə diplomu ilə ixtisaslarını bitirib. Cari tədris ili ərzində əyani və qiyabi şöbələrdə, ümumilikdə, 13 ixtisas üzrə 541 nəfər tələbə təhsil alıb. Tələbələrin 241-i dövlət hesabına, 300-ü ödənişli əsaslarla təhsil alıb, onların təhsili ilə biri fəlsəfə doktoru, biri isə Əməkdar müəllim olmaqla, ümumilikdə, 52 müəllim məşğul olub.



Qeyd edilib ki, cari tədris ilindən kollecin qəbul planında dəyişiklik edilib, 3 ixtisas qəbul planından çıxarılaraq 5 yeni ixtisas qəbul planına daxil edilib. Muxtar respublikanın əmək bazarı və tələbatı nəzərə alınmaqla açılan yeni ixtisaslar hesabına qəbul planı 158-dən 183-ə qədər artırılıb. Ümumilikdə isə cari tədris ilində qeyd olunan 5 yeni ixtisasdan əlavə Bank işi, Baytarlıq, Elektrik təchizatı, İstilik təchizatı və istilik texnikası avadanlıqları, Mühasibat uçotu, Nəqliyyatda daşımaların təşkili, Rabitə qovşaqları və kommunikasiya sistemləri və Yol hərəkətinin təşkili ixtisasları üzrə kadr hazırlığı aparılmaqdadır. Kollecin muxtar respublikanın kadr hazırlığındakı rolu nəzərə alınaraq növbəti tədris ili üzrə yeni – Turizm işinin təşkili ixtisasının qəbul planına salınması, tələbə qəbulu sayının isə 183 nəfərdən 200 nəfərə çatdırılması nəzərdə tutulub.

Vurğulanıb ki, cari tədris ili üzrə kollecin məzunlarından 106-sı müsabiqə şərtlərini ödəyərək ali təhsil almaq hüququ qazanıb ki, onların da 45-ni ötən tədris ilinin məzunları təşkil edib. Ötən müddət ərzində kollecdən ali təhsil müəssisələrinə, ümumilikdə, 221 nəfər müsabiqədənkənar qəbul olub.

Sonra çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

İcmal

# Müdrik siyasətə sədaqətin, düşünülmüş inkişaf strategiyasının, yurd sevgisinin işığında çiçəklənən qədim diyar

***Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının qətiyyət və uğurla reallaşdırıldığı Naxçıvanda görülən işlər sosial rifah, dinamik iqtisadi tərəqqi, humanitar siyasət nəticəsində innovasiyayönümlü inkişaf şəklində öz real bəhrələrini verməkdədir. Bunu ötən ilin son ayındakı ictimai-siyasi proseslər, qazanılan uğurlar da sübut edir.***

### *Tarixə qızıl hərflərlə yazılan quruculuq və inkişaf siyasəti*

Müstəqillik illərində muxtar respublikada səhiyyə xidməti sahəsində də köklü islahatlar aparılıb, səhiyyə müəssisələrinin maddi-texniki bazası gücləndirilib, tibbi kadrların səviyyəsi yüksəldilib. Yaradılan hərtərəfli şəraitin nəticəsidir ki, pandemiya ilə mübarizə tədbirləri muxtar respublikada mütəşəkkil təşkil olunub, qabaqlayıcı tədbirlər pandemiyanın qədim diyarda geniş yayılmasının qarşısını alıb. Bir məsələni də qeyd etmək lazımdır ki, muxtar respublikada koronavirus pandemiyasının qarşısının alınmasında müasir səhiyyə infrastrukturu, peşəkar tibbi heyətlə yanaşı, evlərdə karantin rejiminin tətbiqi və müalicənin təşkili də mühüm rol oynayır. Elə bu mühüm amili nəzərə alan Ali Məclis Sədrinin tapşırığı ilə son 2 il ərzində muxtar respublikanın səhiyyə müəssisələrinə tələbata uyğun təcili tibbi yardım maşınları verilib. Dekabrın 1-də muxtar respublikanın səhiyyə müəssisələrinə 17 təcili tibbi yardım avtomobilinin verilməsi də bu istiqamətdə görülən işlərin davamı, vətəndaşların sağlamlığına göstərilən qayğının əyani ifadəsidir. Bu münasibətlə keçirilən tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxışında qeyd edib ki, muxtar respublikada həyata keçirilən çoxşaxəli və məqsədyönlü tədbirlər nəticəsində istər ucqar dağ kəndlərində, istərsə də şəhər mərkəzlərində səhiyyə müəssisələri üçün lazımi şəraitin yaradılması, tibbi avadanlıqların quraşdırılması, həkim hazırlığı və profilaktik tədbirlərin görülməsi muxtar respublikada mövsümi xəstəliklərin yayılmasının qarşısını almışdır. Muxtar respublika rəhbəri Naxçıvanda pandemiya ilə mübarizədə iştirak edən bütün həkimlərə və tibb işçilərinə, baytarlıq təbabəti xidmətinin və hüquq-mühafizə orqanlarının əməkdaşlarına təşəkkürünü bildirib, birgə fəaliyyətin davam etdirilməsinin əhəmiyyətini vurğulayıb. Sonra avtomobillərin açarları təqdim edilib, yeni alınmış təcili tibbi yardım avtomobillərinə baxış olub.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla həyata keçirdiyi sosial-iqtisadi inkişaf strategiyası muxtar respublikada da real bəhrələrini verməkdədir. Ötən il də muxtar respublika tarixinə quruculuq və sosial-iqtisadi inkişaf ili kimi düşüb. Təkcə ötən ilin 3 ayı ərzində Ordubad rayonunun 3 kəndində abadlıq-quruculuq işlərinin tamamlanması dediklərimizin əyani sübutudur. Rayonun böyük turizm potensialı olan Dırnıs kəndində, eləcə də Vələver yaşayış məntəqəsində geniş tikinti-quruculuq işləri aparılıb, bu kəndlər də siması tamamilə dəyişərək abadlaşan yaşayış məntəqələri sırasına qoşulub. Bir vacib faktı da qeyd etmək yerinə düşər ki, aparılan genişmiqyaslı quruculuq işləri zamanı ümummilli liderin ***"Təhsil millətin gələcəyidir"*** siyasi strategiyası əsas götürülərək yeni məktəb binalarının inşasına xüsusi diqqət yetirilir, təhsilin inkişafı, dünya təhsil sisteminə inteqrasiyası sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Təkcə onu demək kifayətdir ki, ötən il muxtar respublikada 8 məktəb binası tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib, hazırda 5 təhsil müəssisəsində binaların tikintisi və ya yenidən qurulması davam etdirilir. Dekabrın 3-də 3 mərtəbədən ibarət olan 216 şagird yerlik Dırnıs kənd tam orta məktəbinin, dekabrın 23-də isə 3 mərtəbədən ibarət olan 198 şagird yerlik Vələver kənd tam orta məktəbinin yeni binalarının istifadəyə verilməsi istər tədris kollektivlərinin, istərsə də şagird kontingenti və sakinlərin böyük sevincinə səbəb olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov məktəblərdə yaradılan müasir tədris şəraiti, maddi-texniki baza ilə tanış olub, hər iki məktəbdə elektron sinifdə 200-dən artıq təhsil müəssisəsi arasında keçilən interaktiv dərsləri izləyib. Muxtar respublika rəhbəri Vətən müharibəsi iştirakçıları ilə şagirdlər arasında görüşlərin keçirilməsi barədə tapşırıq verib. Şahmat sinfinə baxış zamanı Ali Məclisin Sədri onlayn şahmat yarışlarına üstünlük verilməsinin zəruriliyini vurğulayıb, Naxçıvanda şahmatın tədrisinin nümunə kimi təqdim olunduğunu bildirib.

Məktəbin pedaqoji kollektivləri ilə görüşdə çıxış edən muxtar respublika rəhbəri onları təbrik edərək deyib: ***"Cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Təhsilin də əsası məktəbdə qoyulur. Ona görə də məktəblər müasir tədrisin tələbləri səviyyəsində qurulmalıdır. Müstəqil ölkəmizin gələcəyinin təminatçısı olan gənclərin yetişdirilməsi üçün onlar yaxşı təhsil almalı, vətənpərvər ruhda böyüməlidir. Gənclər elə yetişdirilməlidir ki, onların nəinki Azərbaycanda, həmçinin istənilən xarici ölkələrdə ali təhsil almaq, peşə öyrənmək imkanları olsun".***

Muxtar respublika rəhbəri hər iki məktəbin son 5 illik nailiyyətlərini təhlil edərək qənaətbəxş qiymətləndirib. Məktəbdə təhsillə bərabər, gənclərimizi həm də vətənpərvər ruhda böyütmək, yaradılan şəraitdən səmərəli istifadə etmək, ailələrlə sıx əlaqə qurmaq, hər bir şagirdlə iş aparmaq, onları bacarığına və marağına uyğun ixtisaslara yönləndirmək, qurulanları qorumaq, eyni zamanda kollektivin öz işinə məsuliyyətlə yanaşması və gələcəkdə daha böyük nailiyyətlər qazanması ilə bağlı tapşırıq və tövsiyələrini verib, kollektivlərə tədrisdə uğurlar arzulayıb.

Kənd yaşayış məntəqələrində tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi sahəsində görülən ardıcıl tədbirlərin davamı kimi dekabrın 3-də Dırnıs kəndində həkim ambulatoriyasının açılışı olub. Ali Məclisin Sədri səhiyyə ocağında yaradılan şəraitlə tanış olub, peyvənd və patronaj işinin təşkili, eləcə də səhiyyə maarifinə üstünlük verilməsi, rayon mərkəzindən həkim briqadalarının göndərilməsi, bu sahədə broşürlərin hazırlanması barədə tapşırıqlar verib.

Müasir idarəetmə sistemi yaradılması istiqamətində görülən tədbirlərin davamı olaraq dekabrın 3-də Dırnıs, dekabrın 23-də isə Vələver kənd mərkəzləri də istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov binalarda yerləşən təşkilatların fəaliyyəti və yaradılan şəraitlə maraqlanıb. Məlumat verilib ki, kənd mərkəzlərində inzibati ərazi dairəsi üzrə nümayəndəliklər, bələdiyyələr, rabitə evləri, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatları, arxiv, statistika otağı, klub, zal yerləşir. Ali Məclisin Sədri maarifləndirici tədbirlərin və görüşlərin keçirilməsi barədə tapşırıqlar verib.

Muxtar respublika rəhbəri kompleks quruculuq tədbirləri çərçivəsində Dırnıs və Vələver kəndlərində xidmət mərkəzlərinin də açılışlarını edib, yerli məhsulların satışına üstünlük verilməsi barədə tapşırıq verib. Qeyd edək ki, xidmətin təşkili üçün nümunəvi şərait yaradılmış kənd mərkəzlərinin hər birində 5 nəfər işlə təmin olunmuşdur. Ali Məclisin Sədri kənd sakinləri ilə görüşdə Ordubad rayonunun bu kəndlərinin də müasir yaşayış məntəqələri sırasına qoşulması münasibətilə sakinləri təbrik edərək deyib: ***"Kənddə ailə təsərrüfatları formalaşıb, inkişaf edib. Ərazi imkan verir ki, burada heyvandarlıq, arıçılıq, meyvəçilik və bitkiçilik inkişaf etdirilsin. Bütün bunlardan səmərəli istifadə edərək gözəl, səfalı kəndi daha da abadlaşdırmaq lazımdır. Dövlət əhalinin rahatlığı üçün hər cür şərait yaradıb. Bütün bu işlərin görülməsi üçün ölkədə sabitlik, inkişaf və iqtisadi imkanlar olmalıdır. Ümummilli lider Heydər Əliyev siyasətinin davam etdirilməsi, o yola sədaqət bu gün kəndlərimizi, ölkəmizi abadlaşdırmaqla bərabər, ərazi bütövlüyümüzü təmin etdi. Bunların hamısı bugünkü reallıqlardır... Qısa müddətdə Azərbaycan inkişaf etmiş ölkələr sırasında özünəlayiq yer tutub. Ölkəmiz iqtisadi imkanlarına və təhsilin səviyyəsinə görə ön sıralarda dayanır. Bütün bunlar hamısı nailiyyətdir. Görülən işlər ölkəmizin bu günü ilə yanaşı, eyni zamanda onun gələcəyini də təmin edəcəkdir. Bütün bunlara dövlət-xalq birliyi nəticəsində nail olunub".***

Muxtar respublikada güclü iqtisadiyyatın və yüksək mədəniyyətin göstəricisi, inkişafın ilkin bələdçisi olan yol infrastrukturunun yenilənməsi də daim diqqət mərkəzində saxlanılır. Mərkəzlə yanaşı, bölgələrdə də müasir yolların salınması əhalinin təhlükəsizliyini və rahatlığını təmin edir, sosial-iqtisadi inkişafa xidmət göstərir. Dırnıs və Vələver yaşayış məntəqələrində kənd avtomobil yollarının yenidən qurulması da bölgələrdə infrastruktur quruculuğu istiqamətində görülən işlərin tərkib hissəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov dekabrın 3-də və 23-də həyata keçirilən quruculuq işləri ilə tanış olub. Muxtar respublika rəhbərinə Vənənd-Pəzməri yolunda aparılan yenidənqurma işləri haqqında da məlumat verilib, Ali Məclisin Sədri Vənənd-Pəzməri avtomobil yolunda işlərin davam etdirilməsi barədə tapşırıq verib.

Qeyd edək ki, müasir yol-nəqliyyat infrastrukturu yaradılmasına dövlət qayğısının bir bariz nümunəsi də dekabrın 21-də Babək rayonunun Cəhri qəsəbəsində olarkən Ali Məclis Sədrinin Cəhri-Gərməçataq kənd avtomobil yolunda görülən yenidənqurma işləri ilə də maraqlanmasıdır. Muxtar respublika rəhbəri yolda yenidənqurma işlərinin davam etdirilməsi və sakinlərin təkliflərinin nəzərə alınması barədə tapşırıqlar verib.




Muxtar respublikanın ədliyyə orqanlarında innovativ yeniliklərin tətbiqinə xüsusi diqqət yetirilir, müasir infrastrukturun yaradılması üzrə ardıcıl tədbirlər həyata keçirilir, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını həyata keçirən orqanların fəaliyyəti təkmilləşdirilir. Dekabrın 8-də Naxçıvan Şəhər Qeydiyyat Şöbəsi və 3 saylı Notariat Ofisinin inzibati binasının istifadəyə verilməsi də görülən işlərin davamıdır. Bu münasibətlə keçirilən tədbirdə iştirak edən Ali Məclisin Sədri çıxış edərək ölkəmizdə qeydiyyat şöbələrinin fəaliyyətinin qanunvericiliklə tənzimləməsindən, vaxtilə Naxçıvan şəhərində 1 Qeydiyyat şöbəsi vardısa, hazırda muxtar respublikada 8 Qeydiyyat şöbəsi, 1 Nikah Evi, 11 Notariat Ofisinin fəaliyyət göstərməsindən danışıb, müasir tələblərə cavab verən binada fəaliyyətini davam etdirəcək yeni Qeydiyyat şöbəsinin kollektivini bu münasibətlə təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

### *Hərbi tərəfdaşlıq inkişaf etdirilir*

Azərbaycan ilə qardaş Türkiyə arasında əlaqələrin inkişafı müasir dövrümüzdə hər iki ölkənin prezidentləri tərəfindən daha da inkişaf etdirilir, xüsusilə də hərbi sahədə əməkdaşlıq genişləndirilir. Dekabrın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı hərbi attaşesi, general-mayor Zəkəriyə Yalçınla görüşüb. Muxtar respublikamızın rəhbəri yeni vəzifəyə təyin olunması münasibətilə qonağı təbrik edib, Azərbaycan-Türkiyə münasibətlərinin hərbi sahədə uğurla davam etdirildiyini diqqətə çatdırıb. İkinci Qarabağ müharibəsinin qazanılmasında Türkiyənin tutduğu ədalətli mövqedən və Türkiyə Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsindəki rolundan bəhs edən Ali Məclisin Sədri bunu dostluq və qardaşlıq əlaqələrinin nəticəsi kimi dəyərləndirib, əlaqələrin bundan sonra da inkişaf edəcəyini vurğulayıb.

### *Vaxtilə aqrar məkan kimi tanınan Naxçıvan Muxtar Respublikası aqrar-sənaye diyarı kimi şöhrət qazanmaqdadır*

Son dövrlər muxtar respublikanın iqtisadiyyatında dinamik inkişaf edən sahələrdən birinə çevrilən sənaye yerli istehsalın stimullaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Həmin sektorda aparılan islahatların nəticəsidir ki, tarixən aqrar məkan kimi formalaşan Naxçıvan Muxtar Respublikası aqrar-sənaye diyarına çevrilməkdədir. "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq muxtar respublikada sahibkarlıq inkişaf etdirilir, yeni müəssisələr yaradılır, tələbatın yerli istehsal hesabına ödənilməsinin diqqətdə saxlanılması muxtar respublikanın sosial-iqtisadi tərəqqisinə xidmət edir. Dekabrın 13-də "Naxplast" Məhdud Məsuliyyətli Cəmiyyətinin plastik məmulatlar istehsalı sahəsi istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Məlumat verilib ki, yeni müəssisə sənaye sahəsində idxaldan asılılığın azaldılması, ixrac potensialının artırılması və yeni iş yerlərinin açılmasına imkan verəcəkdir. Müəssisədə Türkiyə istehsalı olan müasir avadanlıqlar quraşdırılıb, 30 nəfər işlə təmin olunub. İllik istehsal gücü 1440 ton olan müəssisədə polietilen şirinq, masa örtüyü, müxtəlif polietilen torbalar olmaqla, 15 çeşiddə məhsul istehsal ediləcəkdir. Müəssisə daxili tələbatı keyfiyyətli yerli məhsullar hesabına ödəyəcəkdir. İstehsal olunan məhsulların ölkəmizin digər regionlarına da satışı nəzərdə tutulub. Müəssisə rəqabətə davamlı məhsul istehsal etməklə iqtisadi inkişafa mühüm töhfə verəcəkdir.

Muxtar respublika rəhbəri çıxış edərək yeni müəssisənin qurulmasında əməyi olanlara və təşkilatçılara təşəkkürünü bildirərək deyib: ***"Bu gün ölkəmizdə sabitlik və inkişaf, sahibkarlara göstərilən dövlət qayğısı, verilən kreditlər və daxili bazarın qorunması imkan verir ki, yeni sahibkarlar formalaşsın, kiçik müəssisələr inkişaf edərək böyük sənaye müəssisələrinə çevrilsinlər. Plastik məmulatlar istehsalı müəssisəsinin qurulması da yeni iş yerlərinin açılması ilə yanaşı, muxtar respublikada bu sahə üzrə mütəxəssislərin formalaşmasına da imkan verəcəkdir. Həmçinin muxtar respublikada bu sahədə əvvəllər tullantı formasında olan məhsullar yenidən xammal kimi təkrar istehsala cəlb olunacaqdır. Bu da ekoloji baxımdan mühüm əhəmiyyət daşıyır".*** Ali Məclisin Sədri müəssisənin fəaliyyətində daxili bazarı təmin etməklə yanaşı, ixrac imkanlarının da yaradılmasının zəruriliyini bildirib, kollektivi təbrik edərək müəssisəni işə salıb. Muxtar respublika rəhbəri müəssisədə istehsal olunan məhsulların keyfiyyətinə nəzarət olunması, məhsul çeşidinə diqqət yetirilməsi, plastik tullantıların yığılaraq müəssisəyə təhvil verilməsinə köməklik göstərilməsi və yeni istehsal sahələrinin yaradılması barədə tapşırıqlar verib.

Dekabrın 17-də isə Naxçıvan şəhərində müxtəlif təyinatlı yeni istehsal və xidmət sahələrinin təqdimatı olub. Bu münasibətlə keçirilən tədbirdə iştirak edən Ali Məclisin Sədri çıxışında istifadəyə verilən müəssisələrdə həm sahibkarın, həm də dövlətin mənafeyinin qorunduğunu diqqətə çatdırıb, bu işdə əməyi olanlara təşəkkürünü bildirib, yaradılan şəraitlə maraqlanıb, müəssisəni işə salıb. Bildirilib ki, istehsalat sahəsində 7 müxtəlif təyinatlı müəssisə fəaliyyət göstərəcəkdir. Bunlar tullantıların təkrar emalı, mebel istehsalı sahəsi, ərzaq və məişət avadanlıqlarının saxlanması anbarı, ərzaq məhsullarının paketlənməsi və logistik mərkəz, 2014-cü ildə "AKİ Əczaçılıq Anbar" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yaradılmış uşaq bezi istehsalı, tibbi spirtin qablaşdırılması və mebel istehsalı sahələridir. Müəssisələrdə, ümumilikdə, 215 iş yeri yaradılmışdır. Ümumilikdə, müəssisələrin qurulmasına 6 milyon 509 min manat investisiya qoyulmuşdur ki, bunun da 730 min manatı dövlət maliyyə dəstəyidir. Məlumat verilib ki, "Cahan Holding" Kommersiya Şirkətləri İttifaqı tərəfindən yaradılan "Tudor Logistik və Sənaye Mərkəzi" əhalinin zəruri ərzaq məhsullarına olan tələbatının ödənilməsində mühüm rol oynayacaq. Muxtar respublika rəhbəri istehsal olunan məhsulların keyfiyyətinə nəzarət olunması, qablaşdırmaya diqqət yetirilməsi, yeni biznes layihələrinin təqdim olunması, yerli xammalla işləyəcək müəssisələrə üstünlük verilməsi və daxili bazarın qorunması barədə tapşırıqlar verib.

*Ardı 3-cü səhifədə*

### *Maddi-mənəvi irsə, milli və dini dəyərlərə sahiblik hissi olan yerdə*

Zəngin və qədim maarifçilik ənənələrinə malik Naxçıvanda mətbuatın birərslik tarixi vardır. 1921-ci ilin noyabrında "Cavanlar həyatı", 1921-ci ilin dekabrından etibarən "Füqəra səsi", 1922-ci ilin aprel ayından isə "Şərq qapısı" adı ilə nəşr olunan qəzet müxtəlif tarixi mərhələlərdə ictimai-siyasi, ədəbi-mədəni proseslərin işıqlandırılmasında, millilik və maarifçilik ideyalarının təbliğində mühüm rol oynayıb. Müstəqillik illərində muxtar respublikada digər sahələr kimi, mətbuat da yeni inkişaf mərhələsinə qədəm qoyub. Ali Məclisin Sədri cənab Vasif Talıbovun qayğısı ilə "Şərq qapısı" qəzetinin 75, 80, 85 və 90 illik yubileyləri dövlət səviyyəsində qeyd edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamı isə muxtar respublikada jurnalistikanın inkişafına, ziyalılığa verilən yüksək qiymətdir. Sərəncamın icrası istiqamətində AMEA Naxçıvan Bölməsində elmi konfrans və ümumilikdə, yubileylə bağlı 13 tədbir keçirilib, bölmə ilə birlikdə "Şərq qapısı" qəzetinin nəşri tarixi və inkişaf yolu" kitabı hazırlanıb, yubiley münasibətilə qəzet əməkdaşlarının 6 kitabı işıq üzü görüb, yaradıcılıq müsabiqəsi keçirilib, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin proqramçıları tərəfindən qəzetin rəsmi internet saytı yenilənib, mətbuatda silsilə məqalələr dərc olunub. Bəhs etdiyimiz həmin tarixi Sərəncama əsasən dekabrın 18-də "Şərq qapısı" qəzetinin 100 illik yubiley tədbiri keçirilib.

Ali Məclisin Sədri "Şərq qapısı" qəzetinin 100 illik yubileyi münasibətilə kollektivi, muxtar respublikanın bütün mətbuat işçilərini, ziyalıları və oxucuları təbrik edərək deyib: ***"Bu gün tərəddüdsüz demək mümkündür ki, "Şərq qapısı" qəzeti Naxçıvanın muxtariyyət tarixini öyrənmək baxımından ən etibarlı mənbədir. Qəzetin 100 illik tarixində Naxçıvanın taleyi və müqəddəratı, çətinlikləri və uğurları əks olunub. İctimai nəzarət funksiyasını yerinə yetirən orqan kimi qəzet bu gün də muxtar respublikanın həyatını və təbliğində səmərəli fəaliyyət göstərir, sosial-iqtisadi və mədəni inkişafa öz töhfəsini verir. Qəzetçilik böyük zəhmət, xüsusi səy, peşəkar yanaşma, hadisələri obyektiv dəyərləndirmək, prosesləri qabaqlamaq və düzgün təhlil etmək bacarığı tələb edən sənətdir. Əgər ilk dəfə nəşrə başlayanda "Şərq qapısı" qəzetinin başlıca məqsədi cəmiyyətdə maarifçiliyə, elmi və mədəni tərəqqiyə nail olmaq idisə, bu gün qəzetin qarşısında bununla bərabər, həm də çevik informasiya siyasəti aparmaq, milli dəyərlərimizi, adət-ənənələrimizi təbliğ etmək, Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişaf və quruculuq salnaməsini yaratmaq və tarixiləşdirmək kimi mühüm vəzifələr durur".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il dekabrın 17-də "Şərq qapısı" qəzeti işçilərinin əməkhaqlarının orta hesabla 20 faiz artırılması haqqında imzaladığı Sərəncam tədbir iştirakçılarının diqqətinə çatdırılıb. "Şərq qapısı" qəzetinin baş redaktoru Sultanova Mehriban Paşa qızına Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı təqdim edilib. "Şərq qapısı" qəzeti ilə uzunmüddətli əməkdaşlıq edən, qəzetin Culfa rayon müxbiri vəzifəsində çalışmış, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Fərəc Fərəcova qəzetin 100 illik yubileyi ilə bağlı qiymətli hədiyyə təqdim olunub. Tədbirdə Naxçıvan Muxtar Respublikası təltiflərinin təqdimatı olub. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 dekabr 2021-ci il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında mətbuatın inkişafında səmərəli fəaliyyətlərinə görə "Şərq qapısı" qəzetinin 2 əməkdaşı "Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti" fəxri adı, qəzetin və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin 4 əməkdaşı isə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunublar. Ali Məclisin Sədri fəxri adın döş nişanını və vəsiqəsini, eləcə də "Rəşadətli əməyə görə" nişanını və vəsiqəsini təqdim edib. Muxtar respublika rəhbəri mətbuat nümayəndələri ilə səmimi söhbət edib, jurnalistika peşəsinin və mətbuatın əhəmiyyətini vurğulayıb, nəşr olunan kitabların dərs vəsaiti kimi istifadəsinin vacibliyini bildirib, bu illər ərzində səmərəli fəaliyyətlərinə görə muxtar respublika teleradio və mətbuat işçilərinə təşəkkür edib.

Muxtar respublikada həyata keçirilən genişmiqyaslı tədbirlər sırasında milli-mənəvi dəyərlərimizə, o cümlədən yeni məscidlərin inşa edilməsinə, tarixi məscidlərin isə bərpa və təmir olunmasına diqqət və qayğı xüsusi yer tutur. Bu tədbirlərin davamı olaraq Cəhri qəsəbəsində tam yararsız vəziyyətdə olan tarixi məscidə yeni həyat verilib. Məscid orta əsrlər dövründən bəri Cəhri əhalisinin həyatında mühüm rol oynayıb. Ancaq Sovetlər Birliyi dövründə baxımsızlıq ucbatından xeyli aşınıb, uçub-dağılıb. Buna baxmayaraq, məscid Naxçıvan memarlıq məktəbinin ənənələrinə uyğun olaraq müasir üslubda yenidən inşa olunaraq dekabrın 21-də istifadəyə verilib. Bu münasibətlə keçirilən tədbirdə iştirak edən Ali Məclisin Sədri çıxış edərək deyib: ***"… mənəviyyatlı insanlar vətənpərvər insanlardır. Vətənpərvər insanlar isə harada yaşamalarından və hansı işlə məşğul olmalarından asılı olmayaraq, Vətəninə, ölkəsinin möhkəmliyinə xidmət edirlər. Uzun illər işğal altında olan torpaqlarımız da məhz Ali Baş Komandanın rəhbərliyi ilə vətənpərvər və mənəviyyatlı insanlarımız, müzəffər Ordumuz tərəfindən azad olundu. Əsgərlərimizin azad olunmuş torpaqlarda, dağıdılmış məscidlərdə Quran oxumaları insanlarımızın nə qədər böyük mənəviyyata sahib olmalarının göstəricisidir. Bu mənada, məscidlər təkcə ibadət yeri deyil, həm də mənəviyyat ocağıdır".***

### *Milli həmrəylik və Vətənə məhəbbət Vətən oğullarına qayğıdan başlayır*

Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında şəhid ailələrinə və müharibə iştirakçılarına hərtərəfli qayğı göstərilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il sentyabrın 23-də "Naxçıvan Muxtar Respublikası ərazisində yaşayan Vətən müharibəsi ilə əlaqədar şəhid ailəsi statusu almış, habelə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması haqqında" Sərəncam imzalayıb, 1 milyon manat vəsait ayrılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 dekabr tarixli Fərmanına əsasən isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu yaradılıb. 2021-ci ildə ölkə Prezidentinin müvafiq Sərəncamı ilə ayrılmış və dəstək fondunun vəsaitləri hesabına muxtar respublikada 23 şəhid ailəsi və qazi mənzillə, 18 Vətən müharibəsi iştirakçısı avtomobillə təmin olunub, müvafiq kateqoriyadan olan 23 şəxsin müalicə və müayinəsinə köməklik göstərilib, şəhid ailələri və qazilərdən 17-nin kredit borcu ödənilib, 25-nin isə mənzilləri təmir olunub. Bu tədbirlərin davamı olaraq dekabrın 24-də – Azərbaycan Respublikası Prezidentinin yubileyində Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində 3 şəhid ailəsinə və 2 qaziyə mənzillər, 10 Vətən müharibəsi iştirakçısına isə avtomobillər təqdim olunub.

Ali Məclisin Sədri tədbirdə çıxış edərək deyib: ***"Ümummilli liderimiz Heydər Əliyevin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanda ictimai-siyasi sabitliyi və inkişafı təmin etmişdir. Bu gün isə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf konsepsiyasının bəhrəsi olaraq Azərbaycan dünya dövlətləri sırasında öz layiqli yerini tutmuşdur. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanı parçalanmaqdan xilas edərək Milli Qurtuluşa, ölkə Prezidenti cənab İlham Əliyev isə ərazi bütövlüyümüzü təmin etməklə tarixi Zəfərə qovuşdurmuşdur".*** Ali Məclisin Sədri əlamətdar gündə qəhrəman şəhidlərimizin əziz xatirəsinə ehtiramını bildirib, şəhid ailələrini və qaziləri mənzillər və avtomobillərlə təmin olunmaları, eləcə də bütün şəhid ailələrini, veteranları qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramları münasibətilə təbrik edib. Sonra Ali Məclisin Sədri mənzillərin orderlərini və avtomobillərin açarlarını təqdim edib.

Əsası ulu öndərimiz tərəfindən qoyulan dövlət-xalq-ordu birliyinin ideal təzahürüdür ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz Vətən müharibəsində tarixi Qələbə qazanıb. Naxçıvan Muxtar Respublikasında da həmrəylik bayramında əsgərlərlə görüşlərin keçirilməsi, sovqatların aparılması bu birliyin daha bir nümunəsi kimi mühüm əhəmiyyətə malikdir. Dekabrın 31-də – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə Ali Məclisin Sədri Naxçıvan Qarnizonu Mərkəzi Hospitalına gəlib, burada müalicə olunan hərbi qulluqçularla görüşüb, onların səhhəti ilə maraqlanıb, əsgərləri və tibbi heyəti Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edib. Ali Məclisin Sədri yeməkxanada olub, hərbi qulluqçuların qidalanması ilə maraqlanıb, hospitalda mülki şəxslər üçün də tibbi xidmətin təşkili və kadr işinin diqqətdə saxlanılması barədə tapşırıqlar verib.

### *Dinamik inkişaf firavan gələcəyə zəmanətdir*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında kompleks inkişaf davam etdirilib, əməkhaqları artırılıb, yüksək rifaha nail olunub, sosial-iqtisadi islahatların əhatə dairəsi genişlənib. Naxçıvan Muxtar Respublikasında 2021-ci ilin ən mühüm hadisəsi mayın 10-da Prezident cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri olub. Səfər zamanı dövlət başçısı bir sıra mühüm sosial obyektlərin açılışında iştirak edib, digərlərinin tikintisi, Ordubadda dəmir yolu stansiyasının yenidən qurulması ilə tanış olub. İqtisadiyyatın əsas inkişaf göstəricisi sayılan ümumi daxili məhsul istehsalı 2020-ci illə müqayisədə 2021-ci ildə 2,4 faiz artaraq 3 milyard manatdan çox olub. Onun hər bir nəfərə düşən həcmi 6525 manat təşkil edib ki, bu da 2020-ci ildəki göstəricidən 3,4 faiz çoxdur. Ümumi daxili məhsulun 59 faizdən çoxu istehsalın payına düşüb. Görülən işlərin nəticəsidir ki, 2021-ci ildə istehsal olunan sənaye məhsulunun həcmi artaraq 1 milyard 69 milyon manatdan çox olub. Bunun da 92 faizi qeyri-dövlət sektorunun payına düşüb. 2021-ci ilin məhsulu üçün muxtar respublikada 64 min hektardan artıq sahədə əkin aparılıb. Əkilmiş sahələrin 32 min 721 hektarını taxıl təşkil edib, zəmilərdən 103 min tondan artıq məhsul yığılıb. Sosial-iqtisadi sahədə əldə edilmiş uğurlar, sabitlik və təhlükəsizliyin təmin edilməsi muxtar respublikada məskunlaşmanın və əhali rifahının yaxşılaşmasına öz təsirini göstərib, muxtar respublika əhalisinin sayı artaraq 463 min nəfər olub. Dekabrın 29-da altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında Ali Məclisin Sədri 2021-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları barədə məruzəsində bu faktları qeyd edib.

Bu uğurlarda zəhməti olanların fədakar əməyi isə dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir. Dekabrın 30-da – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikası təltiflərinin təqdimat mərasimi də buna bariz sübutdur. Ali Məclisin Sədri təltif olunanlara çalışdıqları sahələrdə fərqləndiklərinə görə təşəkkür edib, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbriklərini çatdırıb və onlara fəaliyyətlərində uğurlar arzulayıb. Sonra Ali Məclisin Sədri orden, medal və fəxri adların döş nişanlarını və vəsiqələrini təqdim edib.

Muxtar respublikada əldə olunan uğurların əsasında müasirləşmə və novatorluq, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, hərtərəfli inkişafa xidmət edən genişmiqyaslı islahatlar, müasir dövrün tələblərinə həmahəng olan məqsədyönlü siyasət dayanır. Bütün bu nailiyyətlərin isə əsasında müstəqil Azərbaycanımızın memarı və qurucusu, bir vaxtlar böhran, işğal, tənəzzül məngənəsində məhv olmaqda olan Naxçıvanın xilaskarı ümummilli lider Heydər Əliyev dayanır. Bəlkə də, bu, bir təsadüf deyil, tarixi zərurətdir ki, xalqımız, eləcə də naxçıvanlılar hər ilin sona çatdığı ərəfədə – ulu öndərin anım günündə qazanılan uğurlar, ölkənin, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikanın dinamik tərəqqisi üçün Azərbaycan xalqının görkəmli oğlu, dahi şəxsiyyət Heydər Əliyevin müqəddəs ruhunu dərin ehtiramla yad etməyi özlərinə mənəvi borc bilirlər.

Ümummilli liderimizin Azərbaycan naminə fəaliyyətinin 1990-cı ildən sonrakı mərhələsi – xilaskarlıq və quruculuq missiyası məhz ulu və qədim diyar Naxçıvanda pərvəriş tapıb. Həmin illərdə dahi şəxsiyyət, bütünlükdə, ölkəni gələcək parçalanmadan, iqtisadi tənəzzüldən, siyasi məğlubiyyətdən, müstəqilliyini itirmək kimi dəhşətli faciədən xilas edib, doğma Naxçıvanı erməni işğalından qorumaqla Azərbaycanımızın bugünkü Tarixi Zəfərinin, ərazi bütövlüyünün əsasını qoyub. Məhz buna görədir ki, qədirbilən naxçıvanlılar ulu öndərin xatirəsini daim uca tutur, onun nurlu xatirəsini ehtiramla yad edirlər. Ali Məclisin Sədri hər il olduğu kimi, ötən il dekabrın 12-də də müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoyub, ulu öndərin xatirəsini dərin ehtiramla yad edib.

*Ümummilli liderə ən böyük ehtiram və sədaqət isə muxtar respublikada onun siyasi irsinə sadiqlik, layiqli siyasi varis kimi bu ideyaların gerçəkləşməsi yolunda tükənməz əzmkarlıq, fədakar əmək və qətiyyətdir. Ali Məclis Sədrinin altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında dediyi kimi:* ***"Əldə olunan nəticələr onu deməyə əsas verir ki, 2022-ci ildə də Naxçıvan Muxtar Respublikasında inkişaf davamlı xarakter alacaq, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət muxtar respublikada uğurlu nəticələrin qazanılmasına imkan verəcəkdir. Ölkə Prezidentinin də dediyi kimi: "Biz bütün istiqamətlərdə uğurla inkişaf edirik. Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik".***

✍ **Mehriban SULTAN**
*Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti*

## İşçi qruplarının növbəti iclası olub

Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2021-ci il sentyabrın 21-də Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin fəaliyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Naxçıvanın hərtərəfli tədqiqi və aparılan araşdırmaların səmərəliliyinin artırılması məqsədilə bir sıra mühüm tapşırıqlar vermişdir. Müşavirədə muxtar respublikanın hər bir rayonunun tarixinin yazılması, Naxçıvanın qədim və müasir dövlətçilik tarixinin əsas tədqiqat predmeti olması, bölgənin ən qədim dövrlərdən Azərbaycan türklərinə məxsusluğu ilə bağlı elmi materialların sayının artırılması, arxeoloji ekspedisiyaların davam etdirilməsi, hər bir yaşayış məntəqəsinin etnoqrafik xüsusiyyətlərinin araşdırılması, Naxçıvan ədəbi mühitinin obyektiv təhlil olunması, min illər ərzində formalaşmış xalq deyimlərinin, folklor nümunələrinin toplanaraq sistemləşdirilməsi, muxtar respublikanın təbii sərvətləri və bioresursları öyrənilməklə tətbiqyönümlü araşdırmaların aparılması ilə bağlı qarşıya qoyulan vəzifələr tədqiqatların istiqamətlərinin müəyyənləşdirilməsində böyük önəmə sahibdir. Bununla əlaqədar olaraq AMEA Naxçıvan Bölməsinin elmi-tədqiqat müəssisələrində əsaslı araşdırmaların aparılması üçün tədqiqat qrupları yaradılıb. İşçi qruplarının növbəti iclası keçirilib.

İclasda çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, 2022-ci il üçün iş planından əlavə olaraq "Naxçıvanın dövlətçilik tarixi", "Naxçıvan tarixinin səhifələrindən", "Naxçıvan arxeologiyası", "Naxçıvan etnoqrafiyası" (iki cilddə), "Naxçıvan Muxtar Respublikasının xalq deyimləri", "Şərur rayonunun tarixi", "Babək rayonunun tarixi", "Ordubad rayonunun tarixi", "Culfa rayonunun tarixi", "Şahbuz rayonunun tarixi", "Kəngərli rayonunun tarixi", "Sədərək rayonunun tarixi", "Naxçıvan folkloru" (Uşaq folkloru, IV cild) adlı 13 kitabın nəşri nəzərdə tutulub. Rayonların tarixinin və "Naxçıvan etnoqrafiyası" ikicildliyinin hazırlanması məqsədilə işçi qrupları yaradılıb. Hər bir əsərin nəşri ilə bağlı müvafiq plan tərtib olunaraq icra mərhələsindədir. Tədqiqat qruplarının üzvləri aparılan axtarışların nəticələri, kitabların nəşri məqsədilə görülən işlərin icra vəziyyəti haqqında məlumat veriblər.

Toplanan yeni materiallar təhlil olunaraq qruplaşdırılıb, kitabların redaktəsi və nəşri üçün son tarixlər müəyyənləşdirilib. Rayonların tarixinin öyrənilməsi ilə bağlı aparılan axtarışlar, işçi qruplarının gördüyü işlər təhlil edilib.

Vurğulanıb ki, hər bir kitab əhatə etdiyi rayonun adının etimologiyası, tarixi, təbii-coğrafi şəraiti, sosial-iqtisadi inkişafı, kənd təsərrüfatı, sənaye, mədəniyyət, ədəbi mühit, təhsil, səhiyyə və başqa mühüm sahələri tam əhatə etməli, dəyərli məlumat bazası rolu oynamalıdır.

Məlumatların dolğunluğunu, əhatəliliyini təmin etmək və yeni materiallarla kitablara əlavə olunması məqsədilə rayon və kəndlərə təşkil olunan ekspedisiyaların nəticələri ilə maraqlanan bölmə rəhbəri nəzərə çatdırıb ki, davam edən araşdırmaların vəziyyəti yeni materialların aşkar olunacağına dəlalət edir.

İclasda "Naxçıvan etnoqrafiyası" (iki cilddə) və "Naxçıvan Muxtar Respublikasının xalq deyimləri" kitablarının hazırlanması, tərtibi və strukturu ilə bağlı müvafiq tövsiyələr verilib. "Elm Festivalı"nın keçirilməsi ilə bağlı qarşıya qoyulan məsələlərin həlli istiqamətində görülən işlər müzakirə olunub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

***“Ermənilərin kəndimizə etdiyi ilk həmlə indiki kimi yadımdadır. Gərməçatağı dövrəyə alan dağlar, dərələr heç vaxt eşitmədiyi top-tüfəng səsləri ilə lərzəyə gəldi, təbiətin ahəngi dəyişdi. Açığı, ilk vaxtlar onların bu işə qol qoyacağına inanmaq istəmirdik. Axı dünənə qədər qonşu bilib onlara evimizin qapılarını taybatay açmışdıq, süfrəmizin başında oturtmuşduq. Necə oldu ki, bizim bu qonaqpərvərliyimizin, insaniyyətimizin qarşısında onlar xain, dönük çıxdılar, – deyə düşünürdük. O vaxt çoxumuz cavan idik, gördüklərimizə inana bilmirdik. Ağsaqqallar, ağbirçəklər deyirdilər ki, bala, bu bədnamlıq onların xislətindədir. Azərbaycanlılara qarşı başladıqları kin-küdurət bir-iki günün söhbəti deyil. Çörəyi dizinin üstündə olanlardan heç nə gözləməyin. Düşmənçilik onların qanındadır... Uzun sözün qısası, ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanın bütün sərhəd kəndləri kimi Gərməçataq da erməni işğalı təhlükəsi ilə üz-üzə qalmışdı”.***

# Yurd sevgisi...

## *Bizi Gərməçatağa səsləyən yaradılan şərait, yurd sevgisi oldu*



Soyuq bir yanvar günündə, isti ocağında halal süfrəsinin ətrafına toplaşdığımız gərməçataqlı Piri İsmayılov xatirələri ilə olub-keçənləri yada salır: “Yaşlı və orta nəslin nümayəndələri yaxşı bilirlər ki, həmin vaxt Naxçıvan çətin günlər yaşayırdı. Zülmət qaranlığa qərq olan yaşayış məntəqələri, ərzaq qıtlığı, sonu görünməyən çörək növbələri və üstəgəl, erməni quldurlarının sərhədyanı kəndlərə hücumu naxçıvanlılara məşəqqətli və məhrumiyyətli günlər gətirmişdi. Səhəri səngərdə qarşılayıb, axşamı da orada yola salırdıq. Naxçıvandan, eləcə də ölkəmizin digər yerlərindən olan ərlər-ərənlər döyüşlər zamanı dadımıza yetdi. “El bir olsa, dağ oynadar yerindən”, – deyib atalarımız. Əlimizdə ov tüfəngi olsa da, hamımızın qəlbində tükənməz Vətən sevgisi, torpaq təəssübkeşliyi, hünər, qorxmazlıq var idi. Ulularımızdan bizə miras qalan yurda bağlılıq, onu dərin məhəbbətlə sevmək bizim üçün ən güclü ordu, silah-sursat demək idi. Xalqımızın dahi oğlu Heydər Əliyev məhz belə çətin günlərdə köməyimizə gəldi. Naxçıvanı erməni işğalından qorudu, onu hifz etdi, yaşatdı. Yağı düşmənin arzusu, niyyəti puç oldu. Necə deyərlər, yolun altı ilə gələnlər üstü ilə qayıtmalı oldular…”

Piri İsmayılov o dövrün şəraitsizliyi ucbatından məcbur olaraq bəzi ailələrin Gərməçataqdan getmək səbəblərini də açıqlayır: “Sovet hökuməti 70 il ömür sürdü, bu kənddə daşı daş üstünə qoymadı. İmperiyanın mərkəzindən bir xeyli uzaqda yerləşən dağ kəndinin problemləri aşıb daşsa da, bununla maraqlanan olmadı. İnsan yaşadığı yerdə, təbii ki, yaxşı şərait, gün-güzəran, övladı üçün yaxşı gələcək qurulmasını istəyər. Amma o vaxt bütün bunların hamısı, sadəcə, xəyal idi. Kəndin yayı başqa, qışı başqa cür çətin olurdu. Sizi inandırım, elə ki yer bir balaca ağardı, yollar tamamilə bağlanırdı. Rayonla, muxtar respublikanın digər yaşayış məntəqələri ilə əlaqə tamam kəsilirdi. Beləcə, bir neçə ailə ilə birgə kəndi tərk edib paytaxt Bakıda və ölkəmizin digər şəhərlərində yaşamağa məcbur olduq. Bizim üçün, həqiqətən, çətin idi, doğma od-ocaqdan uzaq düşmək, Gərməçataq həsrəti ilə yaşamaq... Amma kənddən çıxanda da qohum-qardaşa demişdim ki, bu gediş həmişəlik deyil. Bir gün qayıdacağıq. Vaxt deyə bilmərəm, amma bir gün mütləq... Pis-yaxşı kəndimizdən ayrı 10-12 il ömür yaşadıq. Artıq aradan illər keçmişdi. Və biz qohum-əqrəba ilə telefon danışıqlarımızdan, Bakıya gələn tanış naxçıvanlılardan eşidirik ki, blokada Naxçıvanı başdan-başa yenidən qurulur. Kəndlər, şəhərlər abadlaşır, insanların sosial qayğıları həll olunur, uşaqlarımızın gələcəyinə qayğı ilə yanaşılır. Özü də bu işlərə əvvəlcə ucqar dağ və sərhəd kəndlərindən başlanılmışdı. Bunun özü də dövlətimiz tərəfindən düşünülmüş, uzaq gələcəyə hesablanmış bir addım idi. Yəni kəndli görsün ki, iş, gün-güzəran, yaxşı şərait olan yerdə hər fəsil gözəldir. İnanın, Bakıda olarkən bu xəbərləri hər eşidəndə qəlbim dağa dönürdü. Doğma yurdumun belə günlərə qədəm qoyması ilə qürurlanırdım. Bir gün atam-anamla məsləhətləşdik və qərara gəldik ki, kəndə dönək. Bizi Gərməçatağa səsləyən yaradılan şərait, yurd sevgisi idi. İnsan belədir də, onun üçün doğulduğu, dünyaya göz açdığı torpağın əvəzi yoxdur. Qərara aldım ki, mənim övladlarım da burada böyüyüb təhsil almalı, Kərətəpənin, Qaraquzeyin arxasında, qalib Azərbaycan əsgərinin qarşısında məğlub simada dayanan düşmənini tanımalı, keçmişdən xəbərdar olmalıdır. Budur, həmin gün gəlib çatıb və biz artıq Gərməçatağa qayıtmışıq. Özü də bizdən başqa, daha 3 ailə kəndə köç edib.

Qalib Azərbaycan Ordusundan söz düşmüşkən, başında topa-topa ağ buludların dolaşdığı bu dağlarda cəsur Azərbaycan əsgəri igidliklə Vətənin keşiyini çəkir. Özü də əlində ən müasir atıcı silahla, qəlbində sonsuz yurd sevgisi ilə... Biz də tez-tez onlara baş çəkir, bayram və əlamətdar günlərdə əsgər və zabitlərin yanında oluruq, sovqatlar aparırıq. Xalq daim ordunun yanındadır. Bu oğullar bugünkü müstəqilliyin, inkişafın, sabitliyin keşiyində dayanıblar. Bu gün Vətən müharibəsində gücümüzü görən məğlub düşmən öz qınında gizlənibsə, mərmi səsi bu kəndə yaddırsa və biz 90-cı illərdəki kimi ah-vayla yaşamırıqsa, deməli, bunun bir səbəbi var: Qalib Azərbaycan Ordusu”.



Dünən



Bu gün

Məktəb

***Haşiyə:*** Muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə döyüş və mənəvi-psixoloji hazırlığını hər gün artıran Əlahiddə Ümumqoşun Ordusunun Gərməçataq kəndində yerləşən hissə və bölmələri də ən yüksək məişət şəraitinə malikdir. Maddi-texniki təminatın artırılması, “Bir nəfər hamı üçün, hamı bir nəfər üçün!” şüarının əldə rəhbər tutulması buradakı şəxsi heyətin də nümunəvi xidmətinin əsasını təşkil edir.

Piri İsmayılov deyir ki, artıq torpaq sahibi, məhsul yiyəsiyik. Kəndimizdə elə bir ailə yoxdur ki, onun öz təsərrüfatı olmasın, ailə təsərrüfatlarının da sayı getdikcə artır. Dövlət də bizim yanımızdadır. İstehsal etdiyimiz məhsulları Naxçıvan şəhərində və rayon mərkəzi Babək şəhərində təşkil olunan festival və yarmarkalarda sata bilirik. Gərməçataq balının, cəvizinin əvəzi yoxdur. Ötən illərlə bu günü müqayisə edəndə deyirəm ki, indi təsərrüfat qurmağa, sahibkar olmağa nə var ki...

İllər öncə hansı ümidlə, hansı arzuyla buradan köç etmişdiksə, indi həmin şəraitin ən yaxşısı qapımızadək gəlib çıxıb. Bu gün Gərməçataqda sürətli internet şəbəkəsindən, teleötürücü qüllədən, mobil operatorlardan hər kəs istifadə edə bilir. Yeni iş yerləri açılıb. Hər kəs yaşadığı mənzili müasir layihə əsasında qurur-yaradır. Evlərdə daimi işıq, təbii qaz, isti su… İnsana bundan artıq nə lazımdır?

Hərdən ömür-gün yoldaşım Xeyrənsə xanıma deyirəm ki, indiki dövrdə siz qadınların da qayğısı azalıb. Yeri gəlmişkən, həyat yoldaşım kənd məktəbində Azərbaycan dili və ədəbiyyatı fənnini tədris edir. Özüm isə 2017-ci ildə muxtar respublika rəhbərinin iştirakı ilə istifadəyə verilən kənd mərkəzində kitabxanaçı işləyirəm. Kəndə bir gözəllik gətirən bu tikililər başqa bir mövzudur. Onları görəndə gənclik illərimə qayıdıram, kədərlənirəm. Kaş bizim də uşaqlığımız müstəqillik illərinə təsadüf edəydi. Sevinirəm ki, artıq bizim uşaqlarımız müharibə, qorxu əhvali-ruhiyyəsində deyil. Onlar hər cür şəraitlə təmin edilmiş məktəb binasında yaxşı təhsil alaraq həkim, mühəndis, zabit, jurnalist, müəllim olmaq arzusundadırlar. Bunun qədir-qiymətini bilmək lazımdır. Heç uzağa getmirəm. Düşmənin Naxçıvanla sərhəddə yerləşən kəndlərində acınacaqlı vəziyyət hökm sürür. Tez-tez Naxçıvan televiziyasından izləyirik ki, müəllimlər əməkhaqlarını vaxtında ala bilmir, tədris ocaqlarında istilik yoxdur, valideynlər şəraitsizlik ucbatından uşaqlarını məktəbə göndərmir və sair və ilaxır. Güclü iqtisadiyyatı, qüdrətli ordusu olan Azərbaycan adlı məmləkətin vətəndaşı olduğumuz üçün qürur duyuruq. Bir valideyn kimi, bir gərməçataqlı kimi bu şəraiti yaradanlara minnətdaram.

* * *

*Bir zamanlar şəraitsizlik ucbatından məcburiyyət qarşısında qalıb Gərməçatağı tərk edənlər bu gün doğma ata ocağını yenidən alovlandırıblar. Məncə, bu, İsmayılovların timsalında kəndə qayıdan hər 3 ailənin yazdığı kiçik bir hekayədir. Adı isə “Yurd sevgisi”dir...*

**Muxtar RZAZADƏ**

## İlin yekunları müzakirə edilib



***Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının 2021-ci ilin yekunları və 2022-ci ildə qarşıda duran vəzifələrlə bağlı iclası keçirilib.***

Federasiya fəaliyyətinin əsas məqsədinin muxtar respublikada hava və ekstremal idman növlərinin inkişaf etdirilməsi, gənclərdə idmanın bu növünə maraq oyadılması, vətənpərvərlik ruhunun yüksəldilməsi və Naxçıvan təbiətinin zənginliklərinin təbliğinin olduğunu bildirən federasiya sədri Mayis Əliyev bildirib ki, 2021-ci il ərzində müxtəlif idman növləri üzrə yarışlarda 250 idmançı, 12 məşqçi və 10 hakim iştirak edib. Ümumilikdə isə rayon bölmələri ilə birlikdə il ərzində keçirilən 10 idman yarışında 950-yə yaxın idmançı mübarizə aparıb. Rayon bölmələri tərəfindən il ərzində, ümumilikdə, 24 yarış keçirilib ki, bunun da 8-i velosiped, 8-i speleo yürüş, 8-i isə idman dırmanması üzrə olan birinciliklərdir.

Mayis Əliyev diqqətə çatdırıb ki, federasiyanın maddi texniki bazasının zənginləşdirilməsi məqsədilə idman dırmanması divarında təmir işləri aparılıb, idmançı və tamaşaçılar üçün örtülü oturacaq yerləri yaradılıb. O cümlədən idman dırmanmasının çətinlik növü üzrə marşrutun yaradılması məqsədilə Bakı şəhərindən müstəqil dağçı-təlimçi cəlb edilən dırmanma daşları quraşdırılıb. Mütəxəssis tərəfindən hesabat ilinin 29-30 oktyabr tarixlərində federasiyanın məşqçi və idmançılarına Süni divara dırmanma idman mərkəzində çətinlik proqramı üzrə təlim-treninq keçirilib.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı vurğulayıb ki, muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarından biri də 2013-cü ildə yaradılan Hava və Ekstremal İdman Növləri Federasiyasıdır. Naxçıvan şəhəri və bölgələrdə federasiyanın bölmə və qrupları fəaliyyət göstərir. Həmin bölmələrdə, ümumilikdə, 21 qrup üzrə 84 yeniyetmə və gənc idmanla məşğul olur.

Nazir yaradılan hərtərəfli şəraitə, göstərilən qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra federasiyanın sədr müavini Azər Məmmədov federasiyanın ötənilki fəaliyyəti barədə ətraflı məlumat verib.

**✍ Ceyhun MƏMMƏDOV**

## *“Gələcək üçün maliyyə”* mövzusunda təlim



*Ordubad rayonu gənclərinin iştirakı ilə “Gələcək üçün maliyyə” mövzusunda təlim təşkil edilib.*

Təlim başlanmazdan əvvəl Ordubad Rayon İcra Hakimiyyətinin əməkdaşı Nurlan Səfərli iştirakçılara uğurlar arzulayıb. Gənclər və İdman Nazirliyinin əməkdaşı Valeh Mahmudov və Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin baş mütəxəssisi Zəhra İsmayılova təlimin məqsəd və əhəmiyyəti barədə danışıblar.

Sonra Maliyyə Tədris Mərkəzinin təlimçisi İbrahim Şərifov büdcənin düzgün şəkildə idarə edilməsi, yığım və investisiyanın əhəmiyyəti haqqında ətraflı məlumat verib, təlimlə bağlı hazırlanmış suallar əsasında intellektual yarış keçirilib. İlk üç yeri tutan komandalar və üzvləri təşkilatçılar tərəfindən sertifikat və hədiyyələrlə təltif olunublar.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Tennis üzrə muxtar respublika birinciliyi

Naxçıvan Şəhər Üzgüçülük Mərkəzində ümumtəhsil məktəblərinin stolüstü tennis klubları arasında muxtar respublika birinciliyinin final mərhələsi keçirilib.



Yarışda ilk mərhələni uğurla tamamlayan 7 komanda (2 qız, 2 oğlan məktəbli) iştirak edib. Qalib olimpiya sisteminə əsasən müəyyənləşib. Belə ki, “Şərur” birinciliyin qalibi olub. “Sədərək” və “Kəngərli” komandaları müvafiq ardıcıllıqla ikinci, üçüncü sıralarda qərarlaşıblar.

İlk üçlükdəki komandalar diplomla təltif olunublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual: Hansı hallarda və müddətdə miras varəsə tərəfindən qəbul edilmiş sayılır?***

***Cavab:*** Mirası istər qanun üzrə, istərsə də vəsiyyət üzrə vərəsə qəbul edir. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən iki halda vərəsə mirası qəbul etmiş sayılır.

Birinci halda vərəsə mirasın açıldığı yer üzrə Notariat Ofisinə mirası qəbul etdiyi barədə ərizə verdikdə miras vərəsə tərəfindən qəbul edilmiş sayılır. Mirasın qəbul edilməsi haqqında ərizə yazılı formada olmalıdır. İkinci halda isə vərəsə əmlaka sahiblik etməyə və ya əmlakı idarə etməyə faktiki başladıqda və bununla da mirası qəbul etdiyini şəksiz nümayiş etdirdikdə miras vərəsə tərəfindən qəbul edilmiş sayılır.

Vərəsə mirasın yalnız bir hissəsinə sahiblik etməyə faktiki başladıqda da mirasın nədə ifadə edilməsindən və harada olmasından asılı olmayaraq, o, mirası tamamilə qəbul etmiş sayılır. Vərəsə vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində mirası qəbul edə bilər. Miras açıldığı gündən altı ay keçdikdən sonra mirasın qəbuluna yol verilmir. Vərəsə mirasın qəbul edilməsi üçün müəyyənləşdirilmiş altı ay müddət ərzində mirası qəbul etmədikdə, məhkəmə gecikdirmənin səbəbini üzrlü sayarsa, həmin müddəti uzada bilər.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

### *İtmişdir*

Şərur rayon Zeyvə kənd sakini Şirəliyev Nazim İsa oğlunun adına verilmiş JN-293 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Qurbanov Bəxtiyar Dünyamalı oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 75